# Ermənistanın KTMT-dən imtinası siyasi və hərbi kataklizmlərlə nəticələnə bilər

**Ermənistanın baş naziri Nikol Paşinyan "France24" telekanalına müsahibəsində kollektiv təhlükəsizlik müqaviləsinin 2022-2023-cü illərdə onun ölkəsinə münasibətdə yerinə yetirilmədiyini bildirib və İrəvanın KTMT-də üzvlüyünü "dondurduğunu" bəyan edib. KTMT-dən isə bildirilib ki, İrəvandan təşkilata üzvlüyün dayandırılması ilə bağlı katibliyə müraciət daxil olmayıb.**



Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Elman Nəsirov bildirib ki, bu gün Ermənistan-Rusiya münasibətləri böhran həddinə çatıb: "Bu ölkələr hüquqi baxımdan strateji və hərbi müttəfiq hesab edilsələr də, reallıq tamamilə başqadır. Ermənistan Rusiyanın aparıcı qüvvə olduğu Kollektiv Təhlükəsiz Müqaviləsi Təşkilatında formal olaraq mövcuddur, orada praktiki olaraq heç bir addım atmır. İrəvan KTMT-də nəinki fəaliyyət göstərmir, hətta bu qurumun tədbirlərindən nümayişkaranə şəkildə imtina edir. Bu isə o deməkdir ki, Ermənistan yalnız hüquqi baxımdan KTMT-nin üzvüdür. De-fakto isə bu təşkilata onun üzvlüyündən söhbət belə gedə bilməz".

Deputatın sözlərinə görə, Ermənistanın planlaşdırdığı növbəti siyasi addımlar Rusiya-Ermənistan münasibətlərinin ən pik həddə korlanmasına səbəb ola bilər. Belə ki, Ermənistan qəbul etmək istədiyi yeni konstitusiyaya ərazilərində hansısa üçüncü ölkəyə məxsus hərbi bazanın olmaması ilə bağlı bənd salmaq niyyətindədir. Yeni konstitusiyada bu bənd yer alacağı təqdirdə Rusiyanın Gümrüdəki 102-ci hərbi bazası bu ölkədən çıxarılmalıdır. Bu məsələ konstitusion yolla həllini tapacağı halda, deməli Ermənistanın KTMT-dən çıxması artıq reallığa çevrilə bilər. Lakin Kremlin bunları sadəcə kənardan izləyəcəyi inandırıcı deyil, istisna edilmir ki, bunun qarşılığında İrəvana ciddi təzyiqlər göstəriləcək. Bu, ciddi iqtisadi resurslara malik olan Rusiya üçün çox asandır.

Elman Nəsirov Ermənistanın iqtisadi cəhətdən Rusiyadan asılılığına da diqqət çəkib. Bildirib ki, bunda Ermənistanın elektrik enerjisi tələbatının 40 faizinin Metsamor atom-elektrik stansiyası hesabına həyata keçirilməsi, eyni zamanda bir çox sahələr üzrə monopolist mövqeyin Rusiyaya məxsus olması nəzərə alınmalıdır. Ona görə də İrəvan konstitusiyasına belə düzəliş edərsə, Ermənistanla Rusiya arasında sözün həqiqi mənasında, çox ciddi ixtilaflar yarana bilər. Bu isə birbaşa siyasi və hərbi kataklizmlərin baş verməsinə yol açar.

Deputat yekunda vurğulayıb ki, KTMT-nin katibliyinə İrəvandan təşkilata üzvlüyün dayandırılması ilə bağlı müraciətin daxil olmaması ilə bağlı açıqlamadan isə belə bəlli olur ki, Paşinyanın tezisi hələlik təşkilatın bir sıra tədbirlərində iştirak etməməklə əlaqədardır.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 24 fevral, № 42.- S.5.